

# Türk sənət dünyası daha bir əfsanəsini itirdi

## "Yeşilcam"ın yaraşıqlı ulduzu Tarık Akan alqışlarla son mənzilə yola salındı

**Sentyabrın 16-da İstanbulda müalicə alan türk kinosunun əfsanəsi Tarık Akan xərçəng xəstəliyindən vəfat etdi. Onun vəfatı nəinki Türkiyə sənət aləmində, elə Azərbaycanda da dərin hüzn yaratdı.**

Hazırda Türkiyə sənət aləmində "yarpaq dökümü" yaşanır desək, yəqin ki, yanılmarıq. Vaxtilə "Yeşilcam" kino aləminin sevilən ulduzları bir-bir həyata əlvida deyərək, "Yeşilcamı" bir əfsanəyə çevirirlər. Orta yaş nəslinin yetirmələri məhz bu "Yeşilcam" filmləri ilə böyüyüb. O zamanlar Amerika, Avropa filmləri çox az hallarda evimizin qonağı olurdu. Yerli film sektorumuzda az filmlər çəkildiyi üçün biz "Yeşilcam"ın uşaqları olduq, həmin filmləri izləyərək böyüdük. Məhz bu səbəbdəndir ki, "Yeşilcam"ın ulduzları əzizimizə çevrildi. Onların dünyalarını dəyişməyi bizə də təsirsiz ötüşmür. Orta və yaşlı nəslin nümayəndələri 70-80-ci illərin əfsanəvi ulduzlarının çəkildiyi filmlərin hər dəqiqəsini belə əzbərdən bilir. Elə bu səbəblərdəndir ki, Tarık Akanın ölümünü qəbul edə bilmirik, etməyəcəyik də. Necə deyərlər, sənətkarlar ölmür, unudulmur. Sevənləri var olduqca, unudulmayacaq da. Mərhum aktyorun dəfn mərasimi bunun bir daha sübutu oldu.

Sentyabrın 18-də Muhsin Ərtoğrul Teatrında keçirilən vida mərasiminə kimlər gəlməmişdi... Minlərlə ziyarətçinin sırasında müxalif Cumhuriyyət Xalq Partiyasının (CHP) lideri Kamal Kılıçdaroğlu, Türkiyənin 10-cu prezidenti Əhməd Necdət Sezer və sənət dünyasının bir çox tanınmış simaları var idi. Türkiyə mediasından izlədiyimiz qədər, uşaqdan böyüyə kimi onu sevən hər kəs son mənzilə uğurlamağa gəlmişdi. Aktyorun çəkildiyi filmlərdəki məşhur sözlərindən plakatlar düzəldən pərəstişkarlar göz yaşlarına hakim ola bilmirdilər. Böyük izdiham yaşanan vida mərasiminə "Yeşilcam"ın digər sənətkarları da gəlmişdi. Aktyorla bağlı xatirələrini danışan türk kinosunun ulduzları sənət aləminə onun kimi insanın bir daha gəlməcəyini qeyd edirdilər. Sonda mərasim iştirakçılarının alqışları ilə mərhum aktyor son mənzilə yola salındı. 66 yaşında gözlərini əbədi yuman türk filmlərinin yaraşıqlı aktyoru Bakırköy Zuhuratbaba qəbiristanlığında dəfn edildi.

### YARADICILIQ LÖVHƏSİ...

Kino karyerasına başlamazdan əvvəl Bakırköy çimərliklərində xilasedici işləyən T.Akan 1970-ci ildə "Səs" jurnalının təşkil etdiyi "Sinema artist yarışması"nda qalib olaraq 1971-ci ildə ilk filmi olan "Solan bir yaprak gibi" ilə ekranlara gəlib. 1970-1975-ci illərdə 12 filmdə rol alaraq "Yeşilcam"ın ən parlaq ulduzuna çevrilib. Emel Sayınla "Mavi boncuk"da, Hülya Koçyiğit ilə "Sev kardeşim"də, Hale Soygazi ilə "Gecə kuşu Zehra"da yaddaqalan obrazlar yaradıb. "Hababam sınıfı" adlı ekran əsəri ilə türk kinosunun unudulmazları arasına daxil olmağı bacarıb.

111 film və 4 televiziya serialında rol alan məşhur aktyor 1985-ci ildə Berlin Beynəlxalq Film Festivalında "Pansiyon" filmi ilə "Gümüş Ayı Mansiyon Ödülü"nü qazanıb. 1982-ci ildə Kann Film Festivalında "Yol" filmi ilə "Ən yaxşı aktyor" nominasiyasına namizəd olub. 1973-2002-ci illər arasında 12 mükafata layiq görülüb.

### ATA SEVGİSİ...

Tarık Akanın ölümündən sonra oğlu Barış Üregül ölkə mətbuatına açıqlamasında atasının hər zaman film çəkmək istədiyini söyləyib. O, atasının, əfsanəvi aktyorun xəstəliklə mübarizəsindən də danışıb: "Atam həssas insan idi. Xəstəliyini gizli saxladıq. Xəstəliyindən xəbər tutanda, çox üzüldü. 14 ay əvvəl ağciyərindəki şişlə əlaqədar əməliyyat keçirdi. Şişin kəsilib götürülməsinə və əməliyyatın uğurlu keçməsinə baxmayaraq, xərçəng ağciyərdə yenidən inkişaf etdi. Ağciyərindən sonra qaraciyərində də şiş əmələ gəldi. Qaraciyər çatışmazlığından yaranan böyrək çatışmazlığından sonra dünyasını dəyişdi".

Tarık Akanın qızı Özlem Üregül atasına olan sevgisindən bəhs edib, atasının övladlarına göstərdiyi qayğıdan danışıb: "Atam saysız şəkildə filmlərə çəkilsə də, məşhurluq heç zaman onun başını gicəlləndirməyib. O, bu qədər işin içində bizi unutmayıb. Bizimlə davamlı olaraq maraqlanıb. O, övladlarının hamısı ilə ayrı-ayrılıqda maraqlanıb. Övladları arasında ayrı-seçkilik etməyib".







Həsən Məmmədov və Rasim Balayevlə

### TARIK AKAN RASİM BALAYEVLƏ

Tarixə nəzər yetirdikdə, Azərbaycanın xalq artisti Rasim Balayevin də onunla yaxın münasibətinin olduğunun şahidi oluruq. Xalq artisti mətbuata açıqlamasında Tarık Akan haqda danışaraq kədərlənib. Aktyor türk mətbuatında yer alan, özü, Həsən Məmmədov və Tarık Akan əks olunan şəklin tarixçəsini də danışıb: "Tarık Akanla olan həmin foto 1976-cı ildə Daşkənddə festivalda çəkilib. Sovet dövründə həmin festival hər il keçirilirdi. Cüt illər Daşkənddə, tək illər isə Moskvada keçirilən festivala Asiya, Afrika və Latın Amerikası ölkələrindən gəlirdilər. Ən azı 80 ölkədən nümayəndələr olurdu. 1976-cı ildə biz də rəhmətlik Həsən Məmmədovla o festivalda iştirak edirdik. Həmin vaxt mən Azərbaycanda, Tarık isə Türkiyədə çox məşhur idik. Hətta deyərdim ki, Tarık mehmanxananın dəhlizinə çıxa bilmirdi. Yəni o dərəcədə məşhur idi, tanınırdı. Allah ona hər şey vermişdi - boy-buxun, istedad. Tarıkın boyu 1.92 sm, mənim boyum 1.83 sm idi. Həmin festivaldan sonra mən Türkiyədə iki filmə çəkildim. Bir dəfə görüşmək istədim. "Yeşilcam" aktyorlarının Beyoğlunda yığışdığı bir yer var. Ora getdim, dedilər ki, Almaniyadadır. O vaxt da mobil telefon yox idi axı. Nəysə, onunla görüşmək qismət olmadı. Ümumiyyətlə, öz fikri olan adam idi. Hətta o vaxt prezident olan Kenan Evren haqda tənqidi fikirlər səsləndirdiyinə görə həbs edilmişdi".

### ÖMRÜNÜN SON GÜNLƏRİNDƏ...

Tarık Akan son doğum günlərinin birində Tvitter hesabından gənclik fotosunu paylaşmışdı. Ağrılı idi... Ağrılı olan o sevimli, alagöz, ucaboylu gənc və yaraşıqlı oğlanın təbəssümünə kənardan baxan 66 yaşlı Tarık Akanın sevənlərinə son mesajı idi: "Bir zamanlar her kesin hasretle bakdığı gençliyim gitdi və ben onun ardınca baka kaldım"...

Mərhum aktyor hər dəfə pərəstişkarlarına "Mən yaxşıyam" deyərək onları kədərləndirmək istəmirdi. Aktyor ölümündən bir neçə gün əvvəl "Facebook" hesabından izləyicilərinə özü haqqında məlumat da verib: "Müalicəm hələ də davam edir. Ayaqdayam, yeriyə bilirəm və ən əsası, güclüyəm. Özümü yaxşı hiss edirəm və güman edirəm ki, bu günlər də keçəcək".

Tarık Akan onu uğurlu gələcək gözlədiyinə inanırdı. İnanırdı ki, yaxşılacaq, yaşayacaq, yaradacaq. Ancaq nə edək ki, qisməti bura qədər imiş. 1949-cu il dekabrın 13-də dünyaya gələn Tarık Akanın həyatı 2016-cı ilin 16 sentyabrında başa çatdı.

Allah rəhmət eləsin!

**Xəyalə Rəis**



